# Oğuz toponimikası və onun tarixi əhəmiyyəti



■ Əkrəm HÜSEYNZADƏ
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

Azərbaycan folklorunun ideya əsası ən qədim dövrlərdən başlayaraq xalqın mənəvi mədəniyyət səhifəsini özündə birləşdirən folklor irsinin toplanması, araşdırılması və nəşri ilə də ciddi şəkildə bağlıdır. Yazıya alınmayan, hafizələrdə yaşaya-yaşaya zəmanəmizə qədər gəlib çatan folklor nümunələrinin xalq dilindən olduğu kimi götürüb tədqiq olunması çox mühüm şərtdir. Şübhəsiz, şifahi xalq ədəbiyyatının çoxvariantlılığı burada xüsusi diqqət mərkəzində saxlanılmalıdır.

Uzun illər boyu xalqımızın ulu abidəsi olan "Kitabi Dədə Qorqud" dastanı, tariximizi, ədəbiyyatımızı, folklorumuzu, mədəniyyətimizi, incəsənətimizi və bunun kimi bir çox elementləri özündə cəmləşdirən ilk ana kitabımızdır. Bu yazılı abidəmizdə Vətənin dağları, çölləri, bulaqları, al-əlvan çəmənləri, əzəmətli qalaları, abidələri haqqında söhbətlər gedir.

Dastanın boylarında Qədim Azərbaycanın bir çox yerlərinin adları çəkilir ki, onların bir çoxu Naxçıvan diyarındadır: Əlincə, Şərur-Dərələyəz, Ağ qaya, Altun taxt, Qaraçuq, Qarasux, Şərik (Şərur), Dərəşam, Göyçə dəniz (Göygöl), Günortac (Günorta daşı), Sallaxana, Qazan və s. Ümumiyyətlə, Naxçıvan regionunda dastanın qəhrəmanlarının adını yaşadan 50-dən artıq toponim və mikrotoponim qeydə alınmışdır (S.Y. Babayev. Naxçıvanda Kitabi Dədə Qorqud toponimləri. Bakı, 1999, s.10-11).

Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Kilit və Kotam kəndlərində qədim Oğuz türk tayfaları yaşamışdır ki, onlardan birinin adı İşquzlar (İç oğuzlar), digəri isə Diqliqoz (Dinqiliqoz) adlanır ki, bu da dış Oğuzların adı ilə bağlıdır. Hətta bəzi mənbələrdə göstərilir ki, Salur Qazanın sərkərdələrinin birisinin adı Dinqili bəy olmuşdur (Faruq Sümer. Oğuzlar. Bakı: Yazıçı, 1992). Dastandan məlum olur ki, orada gedən proseslərin mühüm bir qismi Naxçıvan ərazisində baş vermişdir. Bayındır xan və Qazan xan hakimiyyətləri, onların iqamətgahları çox ehtimal ki, bu ərazilərdə olmuşdur.

Dastanda öz əksini tapmış şəxs, tayfa və yer adları habelə digər adlar bu gün insanlarımızda vətənpərvərlik, igidlik, yurd sevgisi, tarixi keçmişini yaşatmaq kimi keyfiyyətlərin yaranmasında mühüm əhəmiyyəti var.

"Kitabi-Dədə Qorqud" dastanında və "Oğuznamə"lərdə adı çəkilən və böyük maraq doğuran, tarixi əhəmiyyət kəsb edən adlardan biri də "Kanlı", "Kanqlı", "Qanlı Qoca" adıdır ki, bu ad bu gün Naxçıvanda və Azərbaycanın digər yerlərində yaşayan Kəngərli soyadını daşıyan qədim "Kanqlı" tayfasının adı ilə bağlıdır.

Kəngərlilər tarixən cəsur, cəngavər döyüşçü bir türk qəbiləsi olmuşdur. "Kəngərli" sözü bəzi mənbələrdə qəhrəmanlıq, igidlik mənasını ifadə edən "Qanq+ər+eli" kəlmələrindən meydana gəldiyi də göstərilir.

Kəngərlilər Naxçıvanın ictimai-siyasi, mədəni həyatında, bu diyarın idarə edilməsində, düşmən təcavüzündən qorunmasında həmişə qəhrəmanlıq nümunələri göstərmişlər. Bu tayfa adının köklərinin çox qədim tarixlərə getdiyini və bu adın Dədə Qorqud dastanlarında, "Oğuznamə"lərdə, Oğuz Xaqan dastanlarında işləndiyini görə bilirik. Akademik İsmayıl Hacıyev yazır ki, "Oğuz türkünün ən qədim qollarından biri Kəngərlilərdir... "Kitabi Dədə Qorqud"da Kəngərlilər "Kanqlı" adı altında xatırlanır" (İsmayıl Hacıyev, Şükür Məmmədov. Naxçıvan və Naxçıvanlılar. Bakı, Elm, 2001, s.79). Elə Dədə Qorqud kitabında da belə yazılır: "Qanlı Qoca-personajın adı kitabın bütün çaplarında səhv olaraq "Qanlı Qoca" kimi oxunmuşdur. "Kanlı" xalqımızın yaranmasında iştirak etmiş qədim soyköklərdən biri olan Kəngərlilərin qədim adıdır" (Kitabi Dədə Qorqud. Tərtib edəni və müqəddimə yazanı Fərhad Zeynalov və Samət Əlizadə. Bakı, Yazıçı, 1988, s.261)

Tarixi mənbələrə və bəzi rəvayətlərə görə bizim eranın IV əsrində Muğanın Cənubunda Hun-türk tayfaları yaşayırdılar. Bunların arasında Kəngərlilər çoxluq təşkil etmişlər. Tarixşunas alimlər göstərmişlər ki, "Kəngərli mənşəli qəbilələr eramızın IV-VII əsrlərində indiki Azərbaycan Respublikası və onun ayrılmaz parçası olan Naxçıvanda və bu yerə yaxın bölgələrdə qədimdən məskunlaşmışlar" (İsmayıl Hacıyev, Şükür Məmmədov. Naxçıvan və Naxçıvanlılar. Bakı, Elm, 2001, s.79).

Rusiyada konsul olaraq İrana gedən Yermolov yolüstü bir neçə gün Naxçıvanda Naxçıvan xanı Kalbalı xana, onun oğlu Ehsan xana qonaq olmuşdur. Yevmolov xatirələrində bu yolüstü görüş haqqında yazır ki, Kalbalı xan Kəngərli mənə dedi ki, üç min ildən artıqdır ki, bizim Kəngərli tayfası bu ölkəni idarə etmişdir. Bizə xoş münasibət göstərənlərə sadiq dost olmuşuq, düşməni isə nifrətlə qarşılamışıq, vətənimizi onlardan cəsarətlə qorumuşuq.

XI əsrdə Naxçıvan hakimi Məlik Cəstan Kəngərli Naxçıvan üzərinə hücuma keçən düşmən ordusunu darmadağın etmişdir. O zaman Naxçıvanda yaşayan böyük şair və müəllim Qətran Təbrizi Məlik Cəstanın qəhrəmanlığını tərifləyərək onun şərəfinə böyük bir mədhnamə də yazmışdır.

*Cəstan Allahın köməyi tac-mülkün qılıncı ilə*
*Tac-təxti düşməndən qorudu*
*Hökmdar gecə-gündüz taxt başında*
*Qurd sürüyə düşən kimi düşmənlərin*
*üstünə düşdü...*

(Q.Təbrizi Divan. Fars dilindən çevirəni Qulamhüseyn Beqdeli. Bakı, Az.SSR EA, 1967, s.18)

Şair divanında Cəstanın oğlu Şəmsəddin Kəngərli və Naxçıvan şahı Əbü Dülaf haqqında da bir sıra mədhiyyələr yazmışdır. Onların da Naxçıvanı qorumaqda göstərdikləri qəhrəmanlıqlarını tərif etmişdir.

Xalqımızın ən qədim folklor nümunələrindən olan "Oğuznamə"lərdə də Kəngərlilərin qədim adı keçməkdədir. Azərbaycanın Oğuz elinə daxil olması tarixi mənbələrdən də məlumdur. Bir çox alimlər oğuzların Azərbaycanda, Anadoluda eradan çox-çox əvvəllər yaşadıqlarını qeyd etmişlər. Faruq Sümərin "Oğuzlar" əsərində deyilir: "Oğuzlar azərbaycanlıların əcdadlarıdır... Oğuzlar Türkiyə türkləri, Azərbaycan türkləri, İran və Türkmənistan türklərinin atalarıdır" (Faruq Sümer. Oğuzlar. Bakı, Yazıçı, 1992, s.6). F.Rəşidəddinin "Oğuznamə"sini farscadan tərcümə edən R.M. Şükürova qeyd edir ki, bu "Oğuznamə" ya Anadoluda yazılmış, ya da Azərbaycanda yazılmışdır (Faruq Sümer. Oğuzlar. Bakı, Yazıçı, 1992, s.263). "Oğuznamə"də oxuyuruq ki, "Azərbaycan" türk sözüdür. "Azər" türkcə "Yüksək", "Bayqan" isə yer, məkan deməkdir (Oğuznamə. Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi Samət Əlizadə. Bakı, Yazıçı, 1987, s.41).

"Oğuznamə"lərdən məlum olur ki, arabanı kəşf edənlər Kanqlı tayfası olmuşdur. "Oğuznamə"də deyilir: "...Oğuz Kağanın çeriyində bacarıqlı, cüssəli bir kişi vardı. Bu kişi bir araba çapdı... Arabalar gedəndə "Kanğa, kanğa" deyə səs çıxarırdılar. Onun üçün arabaya "Kanğa" adı qoydular. Oğuz Kağan kanğaları gördü, güldü, ayıtdı. Qoy yüklü arabaları əsirlər çəksin. Sənə verilən "Kanğalıq" adı qoy kanğanı yada salsın" (Oğuznamə. Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi Samət Əlizadə. Bakı, Yazıçı, 1987, s.28).

Dədə Qorqud hekayələri Oğuz dastanının bir hissəsi və ya davamı kimi də adlandırıla bilər. Elə kitabın içində də bu hekayələrin Oğuznamə adlandırıldığını görürük. "Qazılıq qoca oğlu Yeynək boyu"nda deyilir: "...Min yerdə ipək xalça döşənmişdi. İç Oğuz və Daş Oğuz bəyləri məclisə toplaşmışdı...Dədəm Qorqud gəlib boy boyladı soy soyladı. Bu Oğuznamə Yeynəyin olsun! - dedi" (Kitabi Dədə Qorqud. Tərtib edəni və müqəddimə yazanı Fərhad Zeynalov və Samət Əlizadə. Bakı: Yazıçı, 1988, s.195).

Görkəmli ədəbiyyatşünas alim Fuad Köprülü Dədə Qorqud kitabındakı on iki boyun hər birini ayrıca "Oğuznamə" adlandırmışdır (Faruq Sümer. Oğuzlar. Bakı. Yazıçı, 1992, s.13).

Fəzlullah Rəşidəddinin (XIV əsr) "Oğuznamə"sində Oğuzun şəcərəsi verilmişdir ki, bunun Nuh Peyğəmbərdən (s.ə.s) gəldiyi göstərilir. Yeri gəlmişkən qeyd edək ki, Nuh Peyğəmbərin (s.ə.s) gəmisinin Naxçıvanda Gəmiqayada-onun Kiçik Qafqazın ən yüksək zirvəsi olan Qapıcıqda (3906 m) oturması və Nuh Peyğəmbərin (s.ə.s) qəbrinin Naxçıvanda "Köhnə Qala"da olması mənbələrdə göstərilir. Naxçıvanlı realist rəssam Bəhruz Kəngərli (1892-1922) 1919 və 1921-ci illərdə Nuhun qəbrini bir neçə variantda rəsmini çəkmişdir. Sərdabəli bu məzar palçıq kərpicdən hörülmüş və yer üstündən 1, 1.5 metr yüksəklikdə dairə şəklindədir. Çox maraqlı və diqqət çəkici budur ki, Gəmiqayada ekspedisiyada olduğum zaman rast gəldiyim məzar yerləri də ənənəvi qaydadan fərqli olaraq dairəvi şəklində olaraq daş parçalardan yer üstündə hörülmüşdür. Rəvayətə görə Nuhun övladlarından birinin adı Yafəs olmuş və Yafəsin oğlu olarkən Nuh peyğəmbər ona Türk adını vermişdir. Türkün də övladlarından birinin adı Əlincə olmuşdur ki, Əlincə qalası da Naxçıvandadır.

"Oğuznamə"lərdən bu da məlumdur ki, Kəngərlilər ilk dəfə olaraq vəhşi atı əhliləşdirmiş, hündürə qalxaraq ərazini idarə etmiş, ilk dəfə at sürəti əldə etmiş və daha sonra da araba kəşf edərək ondan nəqliyyat növü kimi istifadə etmişlər. Gəmiqayada qayaüstü rəsmlərdə iki və dörd təkərli at araba rəsmləri bir neçə yerdə təsvir olunmuşdur.

Göründüyü kimi, Kəngərli tayfalarının adı ən qədim folklor nümunələrimizdə adı keçməklə qədim kökə malik olub, tarixi əhəmiyyət daşımaqdadır.

Hər bir xalqın tarixində çoxəsrlik mədəniyyəti, tarixi, mifik yaddaşı onun incəsənətində konkret, olaraq folklor sənətində, musiqi yaradıcılığında öz əksini tapır. Bunların içərisində folklorun sənətinin xüsusi yeri və mövqeyi vardır. Ümumiyyətlə, xalqımızın tarixi keçmişini, milli düşüncəsini, ictimai varlığını özündə yaşadan folklorumuza çox həssas münasibət həmişə aktuallıq kəsb etməsidir. Folklor nümunələri milli salnamə kimi çox əhəmiyyətli mənbə və qaynaqlardır və onlara milli müstəvidən yanaşılması vətəndaşlıq borcudur.

Məlumdur ki, sovet dönəmində bu nümunələrin milli müstəvidə araşdırılmasına qarşı ciddi əngəllər var idi və süni şəkildə yaradılan sədlər bir çox tarixi həqiqətlərin üzünə qara pərdə çəkmiş, araşdırmaların ideoloji yöndə aparılmasına rəvac vermişdi. Bütün bunlar isə folklorşünaslığımızın işini xeyli çətinləşdirmişdi. Nəzərə alsaq ki, Azərbaycan folklorşünaslığı XX əsrin 30-40-cı illərindən inkişaf etməyə başlamış, H.Araslı, M.H.Təhmasib, V.Xuluflu, S.Əlizadə, F.Köçərli və s. kimi folklorşünaslar tədqiq etdikləri folklor nümunələrini 50-60-cı illərdə sovet ideologiyasının təsirindən qurtarmağa çalışmışlar.

Dövlət müstəqilliyimizin bərpasından sonra bu istiqamətdə elmi tədqiqatların aparılması üçün geniş imkanlar yaranmış, ilkin qaynaqlar əsasında milli-mənəvi dəyərlərin bərpası sahəsində mühüm işlər görülmüş və görülməkdədir.

Müstəqilliyimizin yaratdığı imkanlar əsasında şifahi xalq ədəbiyyatına dair materialların toplanması, nəşri, tədqiqi işləri xeyli genişlənmiş, Azərbaycan folklorşünaslığının sürətlə yeniləşməsi, zənginləşməsi yeni bir mərhələnin əsası və başlanğıcı olmuşdur.